Mənim üçün Gündoğan sevgisi Ana sevgisi kimi ölçüsüz, müqayisəsiz, əvvəli-sonu olmayan bir möcüzədir. Ömrün başlanğıcı Anasa, dünyanın başlanğıcı Gündoğandır – sanmışam; bütün yollar, bütün arzular oradan başlanır, deməli, bütün sirlərin açarı da ordadı – düşünmüşəm. Bu çözələnən yumağın ucu hardadı, bu tarix çayı hansı mənbədən başlanır? İstər-istəməz üzüm Gündoğana çevrilib. İnsan işığa boy atıbsa, işıqdan doğulubsa, Günəşin dalınca düşüb gəlimbsə Bəşər kitabının ilk səhifəsi də ordadır. Həmişə də o ilk səhifəyə can atmışam. Günəş dilivlə, Günəş əlifbasıyla yazılan bu kitabın mənimlə danışacağına, mənə sirr verəcəyinə inanmışam.

ÖLÜMSÜZ ZƏHMƏT

Dünyanın ən kasıb bir evindənəm,
Yoxsulluq, varlılıq sındırmaz məni.
Mən elə odlara alışmışam ki,
Kədər tonqal ola yandırmaz məni.

Ömrün əvvəlində ehtiyac, əzab,
Gözünə ümidlə baxmışam dərdin.
Əzabla döyülən əyilmək bilməz,
Ümid mayasını çürütmək çətin!..

Yollarım bir yurda baş alıb gedir,
Daha ayrılıqlar üstümə gəlməz.
Yadların sınağı tufana dönə
Bir çiçək mehrinə tablaya bilməz.

Elə sınağından keçdim dağların,
Narahat yollar da mənə düz gəlir.
Hər şeyi zəhmətlə qazandığımdan
Zəhmətim özümə ölümsüz gəlir!

8.VIII.85

GÜNƏŞİN KÖMƏKÇİSİ

Bakı
Dünyaların sirrini
doldurub ürəyinə
Açılıb yelkən kimi
tarixin küləyinə.
Açılıb sevgimizə
sözə, işə, ümidə,
Harda "Bakı" desələr
ürəyimdən qəm itər.

Onun qoynuna dolar
bumbuz Şimal yeli də.
Qürbətdən tufan kimi
qayıdan Füzuli də

Bakı qalxar, qabarar
Xəzərin üzərində.
Boyu bir az da artar
dostların nəzərində.

Zaman Gilavar olar,
zaman Xəzriyə dönər.
Tarix də Bakı ilə
yaşıdlığa öyünər.
Yurdu çəkib aparar
illərin sularından.
Düşmənlərin sualtı
hiylə qurğularından.
Ha başının üstündən
iştah yelləri əssin,
onu qərq eləməyə

ac dalğalar tələssin –
Bakı yenə təmkinli,
neft çıxaran, tər tökən.

İşığıyla dünyanın
hər yerindən görükən...
Günəşə köməkçidi
nuru hər gözə düşür.
Gün də dənizdən doğub
Birinci bizə düşür...

Moskva, 15.X.1985

BİR ABİDƏ ÜSTÜNDƏ

Hüseyn Cavid bayramına

Bir abidə üstündə toy-bayram idi dünən,
Bir heykəlin başına gül yağışı yağırdı.
O isə heyrətlənib tərifin qədərindən
Dayandığı zirvədən qəmli-qəmli baxırdı.

Tarixin yollarından dağılıb böhtan çəni,
Dünən fitva verənlər batıblar yalan qəmə.
Xalqın düşməni kimi kimsəsiz keçinənin
Xalqına sədaqətdə əvəzi yoxmuş demə.

O qaralmış elə bax, od götürüb elə bil,
Rənginə imzasının qaralığı hopubdur.
Mərmər üstə qoyduğu o bir dəstə qərənfil
Bir vaxtlar öz tökdüyü qızıl qandan qopubdur.

...Burda kimlər yox idi?! Onsuz arxayınlaşıb,
Meydanı boş sayaraq sinəsinə döyənlər.
Barama qurdu kimi arxivinə daraşıb,
Ata mirası kimi yazdığını yeyənlər.

Onun qolları ilə qol götürüb arada,
Onun töküntüsüylə elmi adlar alanlar.
Quyruğu qırx il əvvəl onu qamarlasa da
Heykəlinin önündə dil çıxaran ilanlar.

Söyəndə də birinci,
Öyəndə də birinci...
İlahi, bu birincilik yarışı çətin peşə.
Şan-şöhrət hərisləri bir paya yetişincə
Xalqı da nərdivana çeviriblər, görmüşəm.

...Gördüm mərmər heykəlin dodaqları səyriyir,
Gözündən ürəyinə gizli süzülür yaşlar.
Kimsə eşitməyəcək bir səs ilə söyləyir:
"Abidəmin üstünə gələn əziz qardaşlar.

Yenə də işləmədə taleyin dəyirmanı,
Bizi üyütmüşdülər, başqası üyüdülür.
Çayxanalar küncündə qeybət qıran oğlanın
Köksündə də cəlladlıq iştahası döyünür.

Köhnə qəsddi yaşayan, şəkli dəyişib ancaq,
Şirin sözlər bitibdi gör kimlərin dilində!
Yüz illər min tufanı adlayan palıda bax,
Sınır öz yemədiyi qurd-quşların əlində...

Hədəfi sürüşkəndi tərifləri, sözləri,
Zamana "sağ ol!" deyin, açır köhnə sirrini.
Arxada boyun buran o oğlana yol verin,
Qoy oxusun bu günün ən mərdanə şerini!.."

Burda mərmər heykəlin pıçıltısı qırıldı,
Ancaq onun səsinə cavab verirdi zaman:
Nə biri-birimizi öldürməkdən yorulduq,
Nə bezikdik ölənin dalınca ağlamaqdan!..

VAXTI YETİŞƏR

Qırıb inamını doğmanın, yadın
Yıxılana gülmək gör necə asan!
Hökm etdin, ayırdın, çapdın, taladın,
İndi də ruhuma əl aparırsan...

Mən viran ocaqda titrəyən bir şam,
Quduz fırtınadır üstümdən əsən.
Elə bil bazarda hərrac malıyam
Qiyməti qoyasan necə istəsən!

Sən cəllad olsaydın belə yanmazdın,
Boynumda baltanın izi bir deyil.
Mənə qardaş deyib qəbrimi qazdın,
Cəllad sözü birdi! Sözün bir deyil!..

Mən sənin gözündə bir sağmal inək,
Daha süd yerinə gələn qanımdı.
Allah da bu zülmü götürməyəcək,
O da öz səbrindən usanmalıdır.

Elə bilirsən ki donacaq zaman,
Qış daim mənədi, yaz sənə çatır?
Dünyanı bürüyən imperiyalardan
Qalan viranələr gör nə haldadır.

Əsrə bir damğadır dilimdəki dağ,
Dağın da düzlənən vədəsi çatır.
Bülbülü qəfəsə saldılar ancaq
Köksündə azadlıq nəğməsi yatır.

Hələ ki tarix də kənardan baxan,
Hələ ki, zaman da yaman axsayır.
Gündə bir millətin ovuna çıxan
Canavar ovunu cinayət sayır.

Tələsmə! Yetişər intiqam vaxtı,
Silinər könlümdən illərin qəmi.
Qayıdar müstəqil yaşamaq haqqım
Ağaca yarpaqlar qayıdan kimi.

1986

KİŞİ ÖMRÜ

Dərd-ölümün elçisi
Ürəyimi yesə də bir üzdən,
Qeyrəti sıxıb sinəmə
yaşaram üroksiz də!
Bulud kimi əridi
ilxı-ilxı köhlənim,
Mazğalların kor gözü
boş yollara dikili.
Dünya sahillərini döyəcləyən dənizim
Heç yanda yer tapmasa
ürəyimə çəkilir.
Oyanar vaxtı gəlcək
o qeyrət də, o ad da!
Təki öz yaddaşımı özüm kəsib
atmayım.
Ən qəddar düşməni də süpürərəm yolumdan,
Təki öz düşmənimdən özüm büt yaratmayım.
Ucalığı sevirəm: Ancaq məzar üstə yox,
Ondansa bulaq olam, ot olam, yarpaq olam.
Hər küləyə əl çalan budaq ola bilmərəm.
Səssiz çöllərimizdə bir ovuc torpaq olam!
Yaşamaq imtahandı doğulandan ölənə,
Ürəyi şüşə kimi daşlara çalır zaman.
Qoy Nəsimi sinfinə yazsın mənim adımı
Öyilməzlik dərsindən verəcəyim imtahan!..

1986

İLHAMLI ÇAĞIMDA

İlhamlı çağımda mənə toxunma,
İnci çiçəyi də incidər məni
Gülün ləçəyi də incidər məni.

Sözüm düz də olsa, yalan da olsa
Yerinə düşməsə ağrıyacağam.
Gözümü zilləyib qulaq da assam
Qəlbimdə səssizcə ağlayacağam.

O, çələng toxuyan, sən qəbirqazan,
Getsə, ayrısından borc almaq olmur.
Ən uca zirvəyə yol tapmaq asan,
İlham zirvəsinə ucalmaq olmur.

Deyimmi fərqiniz nədədir, nədə?
Sən məni pisləyən, o məni öyən,
Vəfasız gözəllər atıb gedəndə
İlhamdı astaca qapımı döyən...

Köməksiz böyüdüm, bilmədi kimsə,
Ürəkdən su içən ağac barlıdır.
Əmiyə, dayıya güvənməkdənsə
İlhama güvənmək etibarlıdır!

İlham həsrətindən çoxları xəstə,
Osa çeşmə kimi xəbərsiz axmış.
Hökmdar taxtına oturan kəs də
İlhamın taxtına həsədlə baxmış...

Od vurub qanını qaynadar sözün,
Xoşbəxtə sevincdi, uğursuza qəm.
Kimsə ilhamlanır qışqırmaq üçün,
Mənə ilham gəlir, düşünməliyəm.

Yurdumun ilhamı – Kürüm, Arazım,
Xəzər öz təbiylə dünyada təkdir.
İlham kiçiklərin başından basıb,
Böyüyü daha da böyüdəcəkdir.

Barmağım ucundan sözlər göyərib,
Daşın da dilini bilən çağımdır.
Ruhumda sehr var, sözə can verib
Özüm söz üstündə ölən çağımdır!

Çınqı möcüzədən alışıb ürək,
Bu yanğı könlümü bürüyəcəkdir.
Ürkütsən İlhamım dəli köhləntək
Məni də dalınca sürüyəcəkdir!..

YAŞAMAQ İNADI

Bu gecə öz qəbrim girib yuxuma –
Sonuncu limana yan almış gəmi.
Özümdən sonraya tamaşaçıydım,
Qüssəsiz, kədərsiz,
yad adam kimi...

Gördüm kəndimizdə köhnə evimiz,
Evin sol yanında yamac yam-yaşıl.
Bir vaxt uşaqlığım keçən yerlərdə
Torpaqdan dikəlir qara başdaşım.

Bura nə qəbristan, nə yol qırağı,
Quzu qırpımına gələn bir çəmən.
Baxıram qəribə məzar daşına
Köhnə evimizin pəncərəsindən.

Bir az kötüyə də oxşayır bu daş,
Neçə ildırımın izi üstündə.
Bir az yarpağa da oxşayır bu daş,
Baharın sonuncu sözü üstündə.

Uçuşa açılan, uça bilməyən
Sığalsız bir qartal qanadı kimi.
Sonuncu nəfəsin mərmər cildində
Sonuncu yaşamaq inadı kimi.

Sahildə donuxmuş qara bir yelkən,
Zamanın yelləri doldura bilməz.
Ömrün son sirrinə qoyulan heykəl, –
Kimsə pərdəsini qaldıra bilməz.

Ya da ki, yonqarsız qaya parçası,
Buluddan torpağa sancılan kölgə.
Bu qaya dalında səngərə yatıb
Ölümü nişana almışam bəlkə?!

Heç nə dəyişməyib bu daşdan özgə,
Yaşıl gözləriylə gülürdü çəmən.
Ölümə baxmaqdan asan nə varmış
Köhnə evimizin pəncərəsindən...

Dubulti, 21.1.1982

YARPAQ YAĞIŞI

Yarpaq yağışına
tutdum könlümü,
Ələndi başıma qızıl anlarım.
Bahardan payıza üzü günəşə
Bir kökün üstündə qızınanlarım.
Yaşıl sevinci də, sarı qəmi də
Torpaq ünvanına yazılanlarım.

Zaman da geriyə dönmüşdü sanki,
Günlərim keçmişə qanadlanmışdı.
Hər sarı yarpaqda uzaq xatirə
Cavan bir ümiddən qopub yanmışdı.

Həyim qalmamışdı addım atmağa,
Yarpaqlar əzizim, qohumum, dostum.
Biri gedəndə də gülərüzlüydü,
Birisi təzətər, birisi yaslı.
Biri öz ömrünü yetirib başa
Birini qoparan namərd küləkdi.
Biri qoruduğu sonuncu sözü
Üz sürtüb torpağa söyləyəcəkdi.

Bu yağış qəribə yağışdı, Allah,
İşləyir adamın ürəyinəcən.

Yuyur duyğuları, ruhu da yuyur,
Ətalətdən yuyur, qorxudan yuyur.
Elə bil tökülür sözünün pası,
Silir ağrıları baxışlarından.
Yüz belə ələnə bunca güc olmaz
Baharın selləmə yağışlarında.

Təbiət ağlayır adamdan betər,
Heç belə qırmızı göz yaşı olmaz.
Bir çılpaq ağacdı ortada qalan
Canlıdı, –
Canlıdan baş daşı olmaz.
Çiynimə bir yarpaq qonur astaca
Bəlkə də ömrümün xəritəsiydi.
Bəlkə də özümdüm budaqdan düşən,
Bir doğma ürəyin ilk arzusuyla
İsidən olsaydı diriləsiydim.
Bu meşə yolunda öz ruhun kimi
Çiynimə qonmuşdu-kövrək, köməksiz.
Görünür tabuta girməzdən əvvəl
Yarpaqtək gedirik çiyinlərdə biz...

Moskva, 11.X.1985

* * *

Bir gün dodağımda qırıldı sözüm,
Qaldım bir kəlmənin əlində əsir.
Ürəyə üz tutdum,
dedi: yalvarma
Sözü saxlamağa yerim nə gəzir?

Sarsıldım ürəyin etirafından,
Gördüm ki, o dilə gəlməz təzədən.
Qəlbimə o qədər qəm yığılıb ki,
Orda yer qalmayıb bircə sözə də...

KƏNDƏ QAYIDARAM

1

Daha burdan o yana bu əsrin səsi yetməz,
Dağların üzü bərkdi, şəhərləri eşitməz.
Milyon illik səssizlik, dəyişməzlik, sonsuzluq,
Daha bundan beləsi mənim yolum-yolsuzluq.
Hanı döşə üz qoysam-bir cığır oyandırar,
Ağaclar keçidlərdə yaşıl işıq yandırar.
Körpüsüz dağ çayında xatirə adlamacı,
Keçilməz meşələrin yaxası mənə açıq.
Gəldikdə saçlarıma yaş əlini çəkər sis.
Mən bir çəki daşıyam
görən hansı göz əyir.
Tərəzinin bir gözü – Bakı, Moskva, Paris,
Bir gözündə kəndimiz öz qəmində göynəyir...

2

Bu at harda kişnəyir titrəyirəm bu soso,
Göydən düşür elə bil, durur nəfəs-nəfəsə.
Keçmişinəm, gəlmişəm, məndən yan keçəmməzsən.
Bəs atın üstündəki? Yəhərdən seçəmməzsən.
Ayaqyalın, başaçıq. Ruhunun qanadında,
Piyada qayıdacaq, cəfakeşlik atında.
Bəlkə bu uşaq mənəm, zil saçları dağınıq,
Yenə at gətirmişəm özüm öz qabağıma.
Yollara da dünyada arzular hakimdisə,
Bu yolların bir ucu öz doğma Bakımdısa,
Niyə doğma dağlarda bitə bilməsin yollar?
Niyə mənim kəndimə yetə bilməsin yollar?
Ya dağlardı günahkar,
Hər gələnə yol verməz.
Asan yol ilə gəlsəm yəqin məni dindirməz.

Deyir piyada gəl ki, diz çök buz bulaqlara,
Addımımdan diksinmək xoş gəlir bu dağlara.
Söylə, qocalmışammı, kobud, cod deyiləm ki,
Qurban olum, kəhər at, sənə yad deyiləm ki?

Bəlkə dəyişilmişəm, ömrün qovhaqovunda,
Qollarım boşalıbsa duyarsan cilovundan!
Sən elə qismətsən ki, susmağa qoymur qanı,
Anam məni dünyaya gətirib qanad üstə.
Təyyarələr ovcunda dolansam da dünyanı,
Öz ata ocağıma dönməliyəm at üstə!

3

Yenə görüş qabağı qəlbim yaman kövrəlib,
Allah, niyə bu kəndin işıqları seyrəlib.
Orda kənd qırağında bir tənha qarı vardı,
Ölüm də təkə qənim. Gəlib onu apardı...
Bir igid küsüb getdi, indi məzarı bumbuz.
Anası da bu eldə qala bilmədi onsuz.
Bu evin sahibinin gözü çoxdan tutulmuş
İşıq nəyinə gərək, bu qayğıdan qurtulmuş...
Göydə qara deşiklər, yerdə qara adalar,
Kəndin ulduzlu göyə belə oxşarlığı var...
Biri övlad dalınca, biri çörək dalınca,
Biri palçıqdan çıxıb bir gün görmək dalınca,
Köçüb gedən qayıtmaz... bu yolsuz obalara,
Qızları ər gözləyən, oğulsuz obalara...

4

Niyə kəndə gələndə əzəlki sevinc gəlmir,
Niyə bu səssizlikdə əsəblərim dincəlmir.
Elə bil azalıbdı o çal-çağır, o şadlıq,
Evlərin duruşunda bir az soyuqluq, yadlıq.
El bil təbiət də duyğuları oyatmır,
Umu-küsü çoxalıb, ağsaqqal sözü çatmır.
Kimsə qoşmaq istəyir məni də qeybətlərə,
Bu kəndə yaraşmayan çoxüzlü söhbətlərə...
Bu qədər uzaq olan, ucqar olan, tək olan
Kənddə də diplomatiya ilanları dolanan,
Burda da dizə çıxıb yalan tör-töküntüsü,
Qonşu qonşudan deyir, qardaş qardaşdan küsür...
Babalar kasıb idi, ancaq kölə deyildi
Vallah biz böyüyəndə bu kənd belə deyildi.

5

Anam, niyə qəmlisən, qəm eləmə, əzizim,
Çox da hərdən ürəyin dumanlara bürünür,
Adına bağışladım hər vaxt yaxşını, pisi.
Sən varsansa dünyada hər şey gözəl görünür.
Hər belə acı yeldən sınan deyil ürəyim,
Dağların ruhu dönməz bu inadlar əbəsdi...
Yüz belə zülmət gəlib yolumuzu bürüyə,
Bu obada gur yanan işığın mənə bəsdi.
Sənin ömrün nur yolu – adi ömür sürmürsən,
Gül səpsən bağça olar, söz səpsən yerə düşməz...
Yaxşı ki, sən dünyanın o üzünü görmürsən
Yaxşı ki, şərin səsi gəlib sənə yetişməz...

31.X.1985

YAY HƏSRƏTİ

Yay gününə əsən yellər görün nə deyir,
Yol üstündə yaddan çıxdı hansı varımız.
Harda qaldı bu dünyanın ilk gözəlliyi,
Tayaları zirvələnən xırmanlarımız.

Qaşınanda yaz otunun daşqınlarından
Bir naxırın dırnağında gümüşlənərdi.
Bir el gəlib xırmanlığa yığışan zaman
Xırman özü dünya boyda genişlənərdi.

Açılardı qocaların hikmət boğçası,
Ötən qışın son qisməti bölünərdi tən.
Vəl dişləri ən qədimi bir yazı yazır
Taxta üstə çuqun sacın qətrələrindən.

Ağbirçəklər bir tərəfdə verib baş-başa,
Nəğmələri göz yaşına qarışıb gedir.
Xatirələr ülgüc kimi tutulur daşa
Bir gülüşdə yüz ağrının qırışı gedir...

Tutun, tutun od yelkənli o ürgələri,
İlk xırmanın həşəmini at ayaqlasın.
Cilovunu filankəsin oğluna verin
Xamını da yumşaldacaq, Allah saxlasın!

Qayıq kimi batıb-çıxır qoşalaşan vəl,
Bu bərəkət dəryasına qərq olmaq asan,
Bu adətdi qismətinə yetməzdən əvvəl
Pərvanətək başına da dolanmalısan.

Yandan keçən yolçuları endirin atdan,
Ruzumuzun nübarından dadmaq vaxtıdı.
Xırman-qızıl sacımızdı günəşin altda
Tonqalımız el sevinci! Çatmaq vaxtıdı!

Küləklənir, kürəklənir yay bərəkəti,
Dolu kimi sovruqçunun başına yağır.
Xırman üstə qanad açan bu qızıl çətir
İşıq olub ac gözlərin qışına yağır.

Tayaların pərqusunda kim yatır yenə,
Bu bərəkət taxtı üstə
mən-balaca şah!
Milyon illik yollar keçib yetişir mənə
Uzaq-uzaq ulduzların nəğməsi, Allah!

Mən olmuşam, ya başqası bu yolu keçən,
Həsrət ilə boylanıram ömrün yazına.
Yay gəlibdi, daş qəfəsdə yenə hər gecə
Oyanıram zəmilərin xışıltısına!..

1986

İSTİSUYUN SƏHƏRİ

Sübhün dumanını bir şüa kəsir.
Qara sərinində alatoranın
Səhərə açılan ürək tələsir.
Ağaran dağ yolu çılpaq budaqtək

Yenə təkəm-seyrək meyvə bitirir –
Qırmızı şalları çəkib başına
Qızlar obalardan qaymaq gətirir...

Cığır ümidini alıb əlinə,
Gədikdən gədiyə quş kimi qonan.
Bulaq nəğməsində gözü yuyulub
Dərə havasında sirri oxunan.
Təmiz nəfəsində bir ana ətri
Güllərə bələnib bal arısıtək
Qızlar obalardan qaymaq gətirir.

Dünyaya qəfləti can gəlir belə,
Bir alov burulur dağ yoxuşunda.
Bir bulud parçası ötür çöl ilə,
Bir quş havalanır qaya qaşından.
Yığıb boğçasına yağı, fətiri,
Bal süzüb qablara bal arzusundan
Qızlar obalardan qaymaq gətirir.

Qızlar da bu isti bulaqlar kimi
Elə bil yer altdan süzülüb gəlir.
Qızlar da dağların gəncliyi kimi
Oba yaddaşından üzülüb gəlir.
Min qonaq toplayan el süfrəsinə
Nənə-boğçalardan bir pay yetirir.
Güllərə dolaşan kəpənək kimi
Qızlar obalardan qaymaq gətirir.

Qayada axtarma dağ çiçəyini
Yenə yanaqlarda çiçək yanacaq.
Səhər ayazında gül dodaqları
Elə qaymaq kimi qaysaqlanacaq.
Qızarmış əlləri süd ətirlidir,
Gözlərdə açılır günəşin çətri.
Korşalan yaddaşa təzə söz səpib,
Köhnə yaralara hər gün duz səpib
Qızlar obalardan qaymaq gətirir...

İstisu, 15.IX.1984

DAĞLARDAN DAĞLARA DANIŞIN...

Dağlardan dağlara danışın ancaq,
Düzənlik nə bilir dağ deyilən nə...
Zirvə vüqarını duymaq umulmaz
Selab qəzəbinə hər əyiləndən.

Çiçəkdən çiçəyə danışın ancaq
Göylərin dilidir güllərin dili.
Ayaq dalayanlar, əl qanadanlar
Günəşdən pay gələn dili nə bilir...

Ürəkdən ürəyə danışın ancaq,
Ancaq duyulmaqla güclüdür ürək.
O daşa sığınıb yaşaya bilər
Ancaq daş əllərdə çiliklənəcək.

Sevgidən sevənə danışın ancaq
Yanıb ürəyinin başı göynəsin
Özü bir həsrətdən yanmayanlara
Özgə ocağının közü neyləsin.

Bəs Vətən... Uşağa tanıt Vətəni,
Qoy hopsun könlünə laylalarla tən
Hər yeni uşaqla ilk qədəm atıb
Ömrünü təzədən yaşayır Vətən!

İstisu, 16.VIII.1984

NAZİM HİKMƏT YOLU

Əgər insan öləndə ömür başa çatırsa,
dayanırsa hərəkət
Bəs bu qəbristanlıqda hara belə yol gedir,
tələsir Nazim Hikmət?
Sanki donub qalmayıb qara mərmər cildində,
soyuq bir an içində,
Yayından çıxan oxdur, daha geriyə dönməz,

keçər, keçər bəxtinə düşən tufan içindən...
...Şairlər yer üzünə şeir yazmağa gəlmir!
Gəlirlər bu dünyanın tarazlığı itəndə.
Gəlirlər ürəklərə dəmir pərdə çəkilib,
damarlardan qan yerinə paslı sular gedəndə!
Təkcə şairlər dözər dünyanı əyən dərdə,
yeri şar kimi sıxan əriməz qəm yükünə.
Milyon qəlbə sığmayan iztirablar, əzablar,
dərdlər, qəmlər sığacaq bir şair ürəyinə!
Şairlər yer üzünə gəlmirlər xumar gözlə
baxıb gülə-çiçəyə,
qadınların nazına şeir deyib getsinlər...
Gəlirlər insanların könlünə işıq səpib
ədalət göyərtsinlər!
Sən onu qəfəsə sal, ömürlük dustaq elə,
doğra, yandır, sındır, at...
hər şairin qəlbində ən şirin bir sevgidir,
bəlkə acılığıyla əzizdir, xoşdur həyat...
Dörd divar arasında, dustaqxana küncündə
bir ömür qurban verən,
Can-can dediyi yurddan uzaqlarda can verən
Bir şairə yurdunda yasaq, yad desələr də,
Üzdə çarmıxa çəkib, içdə istəsələr də
Vətənin köksündə daşıyıb gecə-gündüz,
vətənin ruhunu tanıtdıran o idi.
Ölüm səltənətindən qalxıb-dikəlib yenə,
yenə üzü tufana, Türkiyəyə yol gedir!
Yaxalıq qaldırılıb, kürən saçı alnında,
paltosunun cibində hər əli bir qumbara,
Alnı zirehqırantək dirənb sonsuzluğa,
mərmərin son qatına,
Əbədilik sədd çəkib onun yolunu kəsən
ölüm adlı divara!..
Ancaq o geri dönmür, yorulmur, üz çevirmir,
yollarını saxlamır tufan, təklik, qaranlıq,
Bu mərmər qəfəsləri qoparıb öz yerindən
onun addımlarıyla yüyürür qəbristanlıq!..

Moskva, Novodeviçye, 11.XI.1985

GÜNDÜZÜM GÖZLƏYİR

O körpə əlləri mənim gör nəyim,
İstidə yelpiyim, qışda köynəyim...
Bir "ata" kəlməsi olar köməyim
Ağrılar içimdən didəndə məni...

Başımda ildırım çaxsa – baxmaram,
İllərim sel olub axsa baxmaram,
Zamana baxmaram, vaxta baxmaram
Qoruyar bu ruhda, bədəndə məni.

Nəğməsi – min səslə çağrışan neylər,
Xəyalı ulduzlar alışan göylər,
Mənə bu qürbətin gecəsi neylər?
Gündüzüm gözləyir Vətəndə məni!..

17.X.1979

GÜNƏBAXAN ZƏMİSİNDƏ

Səhər günəbaxan zəmisi şəhli,
Körpə günəşlərdi odsuz yananlar.
Bir boya düzülən əsgərlər kimi
Üzü üfüqədi günəbaxanlar.

Bütöv bir zəminin üzü günəşə,
Ovcunda minlərlə balaca çıraq
Yaşıl bir dünyanın üzü günəşə!
Bir çölün, bir düzün, bir sonsuzluğun
Həyatın, zamanın üzü günəşə!

Susdum torağayın səhər himninə,
Çöllərə işıqla nəğmə yağırdı.
Kiçikli, böyüklü bir ölkə kimi
Zəmilər boy çəkib günə baxırdı.

Hamının ovcuna səadət payı
Eyni bölgü ilə yağsa nə olar?!
Millət də bir haya qalxıb yuxudan
Eyni bir məsləkə baxsa nə olar.

Di gəl təbiəti anlama burda,
Onun dərslərinin son məqsədi bir!
Adi günəbaxan zəmisi bizə
Qovuşmaq öyrədir, birlik öyrədir!

Qardaş duyğusuyla çiyin-çiyinə
Zülmətdə içinə çəkilən xalqın
Günəşə açılıb günəbaxantək
Bir anda, bir haya dikələn xalqın.

Şairi olmaqdı ən gözəl peşə...
Bəlkə buna görə hər səhər erkən
Gündoğana baxıb yol gözləmişəm!..

Albena, 1985

ƏLAC NƏDİR

Aytən xanım,
Bir ölkədə
adlarınız dəyişilib
türklüyünüz danılırsa,
Bura Sizə Vətən deyil,
Vətən deyib yanılırsan...

Adın dönüb Milka olub,
Milyon yarım türk idiniz
Milyon yarım kölgə olub.
Bir millətə diri-diri
ölüm marşı çalınırsa,
Türk dilində söz deməyə,

ixtiyarın alınırsa,
işlədiyin bu dükanın,
geyindiyin bu paltarın,
qazandığın bu çörəyin
nə qiyməti?
Sən bunları geri qaytar
Varlığını tapıb gətir...
Mənim dilim yasaq deyil,
bil, əzizim.
Göz yaşını
yanağından sil, əzizim.
Mən də adam balasıyam,
hansı pasport daşısam da
sənin doğma qardaşınam.
Ancaq qəlbim qapanıbdı
göz yaşına
Bu qatarda yerim yoxsa
vaxtında yer tapmalıyam
məqamında düşməliyəm.
Mən əzəldən ah-nalənin,
sızıltının düşməniyəm!
Biri baxır, biri yeyir,
biri susur, biri döyür,
karvanınız hardan gəldi,
hara getdi.
Bu əsrdə göz yaşına bel bağlamaq
cinayətdi...
Mənim sirrim özümə yük,
Mənim dərdim özümə bəs...
Məndən nicat umursansa
umma əbəs!
Dünən ərin Mustafaydı,
bu gün kimdi? Çağır, gətir.
Mən ərinə söyləyərəm,
bu dərdlərə əlac nədir. –

Bolqarıstan, 3.XI.1985

POLŞADAN BİR YARPAQ

Jurnalist Beata Karçevska əzəmətli Mazovesk qalasının üstündən öz evlərini göstərdi. Alma bağlarının ağ çiçəyinə bürünmüş evin görkəmində ürəyi çəkən bir doğmalıq var idi.

Alma bağlarının ağ yuxusunda
Uyuyub çöllərdə yol gözləyən ev
Səni bu dünyaya gətirib ancaq
Bizim evimizdən uzaqda, heyif...

Məni baxışlarım çəkir o evə,
Çöllər ürəyindən alıb şəklini.
Heyif ürəyindən, öz torpağından
Qoparıb aparmaq çətindir səni.

Ömrün bu yaşında bir zərif külək
Könlümü həsrətlə sınayacaqdır.
Amma dağlarımız gözləri yolda
Qayıdıb getməsəm qınayacaqdır.

Ya mən bu qalanın daşı olaram,
Ya ruhum qayıdar bu yerə hər gün
Alma çiçəyinə bənzəyən qızın
Zərif ürəyini seyr etmək üçün...

11.V.1986

AMERİKA MÜĞƏNNİSİ YELENA XEYMURA

Tellərində yetişmiş zəmilərin qızılı,
Üzünə bu dünyanın xoşbəxtliyi yazılıb.
Ulu nənələrinin avropalı qanından,
Nəğməylə dalğalanan Ukrayna ümmanından

Üzün günəbaxantək günə, gündüzə açıq.
Gözündəki od bəsdi lap zülmətdə yola çıx!
Uzaq, doğma kəlmələr dilindən tək-tək qopur,
"Min ilin tanışıyıq!" –
Sözündən ürək qopur...
Ya peçeneq, ya qıpçaq,
ya da hun buludundan
Bəlkə iki damlatək ayrılmışıq bir zaman.
Oxuduğun nəğmələr ürəyimdən boy atıb,
Bəlkə onu nənəmiz gün dağları aşanda,
Qonşu alaçıqlardan səsləşəndə yaradıb
Saçların bayraq kimi yellənir küçə boyu,
Üstündə nişanı yox, ulduzu yox... ayrı yox...
Məhəbbət bayrağıdı qitələr arasında
Sərhədsiz bir dünyada bu bayrağın tayı yox!..
Ən qədim ayrılıqdan qədimdi bu məhəbbət,
Əllərimə sığınar,
keçib min illik yolu.
Dünya bir tərəzidir – bir gözünə ürəyin,
Birinə də siyasət oyunları qoyulur.
Könlümdəki buz dağı əriyir səs-səmirsiz,
Bircə damla göz yaşı yüz yalana xətt çəkər.
Qəm eləmə, gözəl qız, sən günahkar deyilsən,
İnsanları ayıran zaman xəcalət çəkər!
Könlümüzdə göylərin obədi bir atəşi, –
Raketləri kül elər, sərhədləri odlayar!
Xoşbəxtlərin xoşbəxti ikimizik bəlkə də.
Sevgimiz yüz yasaqı bir nəfəsə adlayır!
Qulağına nə qədər böhtanlar əkilsə də
Görürsən ki, açıqdı ürəyim gül üzünə.
Çəkişmələr, hədələr bata bilməz, qəm yemə,
Mahnılarla tikilən
məhəbbət körpüsünə.

1986

AYRILIĞIN DİLİNİ ÖYRƏNİRƏM

Çiçəklər baharın dilini öyrənir,
arılar çiçəklərin.
Yollar yoxuşların dilini öyrənir,
dalğalar küləklərin.
Dil öyrədir – gün aya,
yağış yerə bilirəm.
Kəndə torpaq dilindən
imtahana gəlirəm.
Xəzan dili, qar dili –
Payızın, qışın barı
Bu dilləri bilməsək
Biz də lal-kar olarıq.

İldırım buludun dilini öyrənir,
Gəmilər dənizin.
Ayrılığın dilini
Öyrənirəm, əzizim.
Aramızda dənizlər,
çaylar, meşələr, dağlar.
Dünyanın üçdə biri –
ağla gətirmək çətin.
Gəlmişəm uzaq eldən
öz dilində soruşam.
Görüm ki, nə istəyir
Məndən sənin həsrətin...

QOVUŞA BİLMİR

Yağır ömrümüzə taleyin qarı,
Bir olsaq – ayrıyıq, ayrılsaq – birik.
Biz ki bu dünyanın bəxtiyarları,
Biz ki bu dünyanın bədbəxtləriyik!..

Köksümdən bir sevgi ümmanı keçir,
Sən baxsan görməzsən – sahillər donub.

Ürəyin ən isti sözləri seçir,
Dilim pıçıldayır ən soyuğunu.

Baxışım döşənir getdiyim yola,
Üz-üzə gəlirik, dayanır zaman.
Ürəyim sənincin kül ola-ola
Söhbət başlayırıq bir ayrısından.

Elə bil qor dolur ürək yerinə...
Məni qanadında uçurur bu yol
"Sənsiz nə yaxşılıq"? demək yerinə
Deyirəm: Yaxşıyam, yaxşıyam, sağ ol!"

Ah, sənə sevilmək necə yaraşır,
Əllər yadırğayıb yovuşa bilmir.
Göydə iki ulduz çoxdan barışıb
Yerdə iki insan qovuşa bilmir.

BİRİMİZ SAĞ GÖZÜK, BİRİMİZ SOL GÖZ

Bizim aramızda beş addımlıq yol,
Gözdə qaş arası!
Ondan da azdı...
Di gəl ki, hərəmiz bir planetdə
Yaşasaq bu qədər ayrı olmazdıq.

Dünənki günümsən – ancaq nə fərqi,
Milyon illər kimi geri dönməzsən
Şəkiltək baxırsan dinməz-söyləməz
Ayrı bir taleyin çərçivəsindən.

Bəlkə sabahımsan –
əl atsam çatar
Bu gün də dolanıb ötüşər, nə qəm.
Heyif ki vədəsi gəlib yetişən
Xəstətək sabaha yetə bilmərəm.

Gözümün önündə səhra ilğımı,
Gözümün önündə şirin bir yuxu –
Ovcumdan qaynayıb çıxan bulaqsan
Suların sərhəddən o taya axır.

Ürəyin önümdə şölələr çəkir,
Mənim bəxtimədir belə gur ocaq.
Uçuram bu oda qızınmaq üçün
Əlim buz şüşəyə toxunur ancaq.

Dənizdə dalğanın ömrü də belə –
Biri qovacaqsa, biri qaçacaq.
Birimiz sağ gözük, birimiz sol göz
Güzgüdə görüşə bilirik ancaq!

GİZLİ SƏS

Yaman öyrənmişəm sənin səsinə,
Sevinc nəfəsidir üstümdən əsən.
Bir ümid qırılar, bir işıq sönər,
Bir çeşmə quruyar-zəng eləməsən.

Nə bir görüş vədi, nə bir umacaq.
Taleyin hökmünü qıra bilmirik.
Dodaqda yüz sual yaşayır ancaq
Barı bircəsini sora bilmirik.

Eləcə bilirəm, ötüşməyib yaz,
Varsan! Xatırlayır bir naməlum kəs.
İsti qucaq açan neçə vədəbaz
Bu vəfalı səsi əvəz eləməz.

Mənim divarlarım şüşədi bəlkə,
Bəlkə bu telefon məni göstərir.
Ayağım altında neçə yad ölkə,
Başımın üstündə sənin gözlərin!..

Tanrı səbri varsa bu gizli səsdə
Onun örtüyünü açmaq da günah,
Günahdı isinmək özgə nəfəsdə,
Ancaq məhv cləyib qaçmaq da günah!

Ruhun köməkçidir mənə haçandı,
İşığın səpilib yoluma mənim.
Namərd uçurumlar ağız açanda
Görünməz əl girir qoluma mənim.

Yaman öyrənmişəm sənin səsinə,
İstəyin dünyanı mənimlə gəzən.
Bəlkə yol qırılar, çiyindaş itər,
Bəlkə ürək susar-zəng eləməsən!

* * *

Bu çəməndə bir çiçək var,
Hara baxsam görəsiyəm.
Bu çəməndə bir çiçək var,
Əl uzatsam dərəsiyəm.

Baxışından könlümə yol,
Dodağından bir söz yanır.
Bu bahar da bəhanəli
Nəfəsimdən pardaqlanır.

Hər insanın bir baharı,
Hər baharın bir çiçəyi.
O ömürlük baharımdı –
O ömürlük sirr çiçəyi.

Mənimkidir hər saçağı,
Fikri, sözü, düşüncəsi.
Olmuşları, olacağı,
Köksündəki hər nəfəsi.

Bu çəməndə bir çiçək var...
Bu çəmənə girmək olmaz...
Yaranandan mənimkidir –
Ancaq onu dərmək olmaz!..

* * *

Yuyursan saçından öpüşlərimi,
Öpüşlərimə
göz yaşım qarışmışdı –
Yuyursan göz yaşlarımı.
Göz yaşlarıma
illərin həsrəti qarışmışdı.
Yuyursan illərin həsrətini.
İllərin həsrətinə
sənin şəklin hopmuşdu –
öz şəklini yuyursan.
Özündən ayrı düşmək
belə yaxşı işdimi,
saçını yuya-yuya
mahnı da oxuyursan?!

1984

BARIŞA BİLMİRƏM

Baxıram seyrəlir cərgələrimiz.
Barışa bilmirəm bu yoxluq ilə.
Ömrün payızından üzümə vuran
Ürəyi donduran soyuqluq ilə.

Yoxuşlar üzümə dayanır hərdən,
Ürəyim sinəmdə sözümə baxmır.
Dünən yollarıma qurbanlar deyən
Mərhəmət göstərib üzümə baxmır.

Guya nə xoş sözə haqqımız qalıb,
Nə də bir istəyə cavab verməyə.

Özümüz bu yolu başa vurmamış
Borcluyuq hamıya yol göstərməyə.

Hara boylanırsan, nəyə baxırsan
Üstündə kiminsə daim gözü var.
Bircə könlümüzdü öz əlimizdə
Onun da yüz qanun müştərisi var.

Alnımın qırışı, saçımın ağı,
İllərlə gözümə səssiz yağan qəm
Mənə söyləyir ki, yetişib çağın,
Bayrağı zirvədən endirməliyəm.

Ehey, ürəyimə ay kimi doğan,
Mən sənə yad gözlə baxan deyiləm,
İşığın sirrimi vursun üzümə,
Daha öz sirrimdən qorxan deyiləm.

Ruhuma elə bir sevinc gətirdin,
Payız yellərinə qarışmaram mən.
Nə qədər dünyada sənin eşqin var
Ölüm yalvarsa da barışmaram mən!

XƏBƏRSİZ GETMƏ

Xəbərsiz tökülür yaz yağışları,
Çəmənlər xəbərsiz bəzər dünyanı.
Saçıma əlnər dağların qarı
Fikrim bulud kimi gəzər dünyanı.
Ömür bu yüyənsiz ata bənzətmə,
Sənə yalvarıram, xəbərsiz getmə.

İllər də ömürdən xəbərsiz gedər,
Bilməzsən hayanda bitər həsrətin.
Mənim ayrılığa dözümüm yetər,
Di gəl ki xəbərsiz ayrılıq çətin.

Kirpikdən ayrılan yaş kimi itmə,
Sənə yalvarıram, xəbərsiz getmə!

Çiçəklər oxuyur çiçək dilində,
Ürək nəğməsini ürək eşidir.
Ruhumda xəlvəti ağrılar bitər,
Xəbərsiz hücumlar düşmən işidir –
Özünü bu çətin yola öyrətmə,
Sənə yalvarıram, xəbərsiz getmə!

Dünyaya min sirrin sorğusu yağır,
Hansı ünvanadır, bilən tapılmaz.
Sən mənim dərdimə şəriksən axı,
Sənsiz dərdlərimi bölən tapılmaz.
Belə zarafatla mənə ork etmə,
Sənə yalvarıram, xəbərsiz getmə!

Qayadan kiminsə göz yaşı axır,
Sonuncu məktublu yamacdakı iz.
Qəbristan yolları bizsiz darıxır,
Ölüm qapımızı güdür xəbərsiz...
Ömrümüz didilir, ürəyi didmə,
Bu yollar geriyə dönməyəcəksə
Bu nəğmə yenidən dinməyəcəksə
Sənə yalvarıram, xəbərsiz getmə!

MİN İLLƏRİN HƏSRƏTİ

Əlin toxunan kimi
Ruhumdan baş qaldırır
min illərin həsrəti.
Dünya yaranan gündən
mən də sənə həsrətəm...
Könlümə dinclik verən
çeşməsidir dağların.
Milyon güldən-çiçəkdən

od alıb dodaqların.
Qoynunu açan kimi
əsir bahar yelləri.
Sən sevgi havasısan
əsrlərin, illərin.
İkimiz görüşmürük, –
görüşürəm həyatla,
keçmişlə, gələcəklə,
Odunu bizə verən
neçə-neçə ürəklə,
Yəqin bu yer üzünə
bir gözəl gəlməliymiş
nə vaxtsa son nişanda,
Qəhrəmanlıq ruhunu
oyatmaq üçün qanda.
Yəqin bu yer üzünə
bir gözəl gəlməliymiş
o kökdən, o nəsildən
Mənə od nəğməsini
oxumaq üçün zildən...
Nə "sevgilim" yaraşır,
nə "yarım" sözü sənə.
Birco Allah qıymasın
Düşməsin gözü sənə!..

ÜZÜ SƏNƏ YAŞAYIRAM

Çaylar üzü dənizə boy atır,
Çiçəklər üzü günəşə.
Üzü sənə yaşayıram həmişə.
Gecələr yuxuma dolursan,
Gündüzlər qorxuma,
Mən səni axtarmıram
Talc çıxarır qabağıma.
Hər şey sənə bağlıdır –
Hətta dərd-sər, intizar,

Qəm nədir ki, onda da
Canlı bir heykəlin var.
Ən uzaq qürbətlərin
buz kimi daşı belə,
Dənizlərin dalğası,
göylərin quşu belə –
Sirli, gözəgörünməz
bir simlə sənə bağlı.
Yaşayıram dünyada
ürəyimin ağrısı,
gözümün işığıyla,
ümidimlə, dərdimlə,
hissimlə sənə bağlı.

... Torpaq üzü göylərə yaşayır,
üzü göyə, Allaha...
Mən də adi torpağam!
Üzü sənəyəm hər an,
üzü sənə-həsrətə,
üzü qəmə, möhnətə.
Üzü cavabsız sözə,
boşluğa, itkilərə!
Səni əlimdən alan
işıqsız bir səhərə!..

SƏNİ GÖZLƏYİRƏM

Səni gözləyirəm günlər uzunu,
Saatlar uzunu, anlar uzunu!

Zaman da daş kimi donub yerində,
Buludlar ötüşmür, küləklər əsmir.
Ayrılıq hökm edir yer üzərində
Mən günü qovsam da günlər tələsmir.

Kədər karvanıdı
ömürdən gedən,
Dünyanın dağında, düzündə həsrət.

Tək məni ayrılıq üzürsə
nədən
Bütün adamların gözündə həsrət.

Yollar şahidimtək durur üzümə,
Deyir ki, axtarma, arama, anma!
Onu mən apardım, mən qaytararam,
Sənə yanmayana sən belə yanma!

Səni gözləyirəm, səni, tək səni,
Ağaclar çiçəyi gözləyən kimi.
Məhbus azadlığın ilk səhərini,
Dünya gələcəyi gözləyən kimi...

Baxışım döşənib uzaq yollara,
Min gedənə dözür bir gələn üçün.
Ən uzaq ayrılıq ağrılarından
Ümid zirvəsitək yüksələn üçün.

Bəlkə gələcəksən günün birində,
Bəlkə də heç zaman gəlməyəcəksən.
Sənin həsrətin də xoşbəxtlik imiş,
Sən bu xoşbəxtliyi bilməyəcəksən...

* * *

Yenə də tək qoyub gedirəm səni,
Soyuq divarların arxasında tək...
Gedirəm bir qısa, xoşbəxt geceni
Gizli dünyamızda dəfn eləyərək!

Bilirəm bu evin xoşbəxt anları
Başlayır mənimlə, bitir mənimlə.
Gedir qulağımda pıçıltıların,
İncik baxışın da gedir mənimlə.

Ürəyim astaca sıyrılır oddan,
Dünən düz gəldiyim yol dolaşıbdı.

Elə bilirəm ki ikinci qatda
Yalqız pəncərən də solğunlaşıbdı.

Gedir gözlərimdə gözündəki qəm,
Ömrün sonunadək silinə bilməz.
Görünür mən adi adam deyiləm,
Adamlar ikiyə bölünə bilməz!

Yenə də yollara enər bir axşam,
Mən də bu yollarla qayıtmalıyam.
Gündüz yad üzlərə yatan dərdimi
Axşam öz üzümə oyatmalıyam.

Daş olub köksümdən asılıb qəhər,
Ruhum səninləsə mən necə sağam?
Yəqin ki güzgüyə baxsam bu səhər
Özgə bir adamla rastlaşacağam.

Yenə də tək qoyub gedirəm səni,
Bir azdan şəklin də gözümdən itər.
Görüşün yenidən doğulmağımdı
Ayrılıb getməyim ölümdən betər!..

"XOŞBƏXT OL" SÖYLƏDİN

"Xoşbəxt ol!" söylədin, "ayrılaq daha"
Bu sözlər qarğışmı, həsrətmi, qəmmi?
Sənsiz ömür sürüb xoşbəxt olmağa
Dünyaya təzədən gələcəyəmmi?

"Xoşbəxt ol!"
Səsindir qulaqlarımda...
Addım səslərin də belə deyirdi.
Sən çıxıb gedirdin, ayağın altda
Ürəyim səssizcə inildəyirdi.

Son dəfə üzünə qoy baxım ki mən,
Göylərdən bir ulduz axacaq indi.
"Xoşbəxt ol!" söylədin,
dedin ürəkdən,
Xoşbəxtlik əlimdən çıxacaq indi!

Soyuq ayrılıqdır üstümdən əsən,
Baharmı, payızmı-hamısı birdi.
"Xoşbəxt ol!" söylədin,
məgər bilmirsən
Bu sözdə bəxtimi dəfn eləyirdin...

29.I.1984

BELƏ YAŞAYIRAM

Nə isə çatışmır xoşbəxtlik üçün
Gör nələr ummuşam "nə isələrdən".
Nə isə fikrimə qəm qatır hər gün,
Nə isə ürəyi ağrıdır hərdən.

Elə səhərlər də bir cür açılır,
Elə axşamlar da gəlir bir sayaq.
Nə isə qisməti əlimdən alır
Məni birdə addım qabaqlayaraq.

Ehtiyac dırnağı yaxamı didir,
Mən hara qayıdım saçlarımda dən?
Güvəncim bir kasıb kənd evinəydi,
O da ki elə bil soyuyub məndən.

Dilim alışırdı Vətən deyəndə,
Qayaya dirənir bu eşqin izi.
Dünənlə bu günüm görüşməz məndə,
Birisi gələndə gedir birisi.

Bir körpə baxışı yola dikili, –
Bu gün də yumruğum açılmayacaq...

Yenə bostanıma tikan əkilir,
Anamın baxışı döz deyir, ancaq...

Nə isə çatışmır xoşbəxtlik üçün,
Bir uzaq ünvanda telefon dinmir.
Cavabı qayıtmır dediyim sözün,
Məni sevindirən mənə sevinmir.

Nə olsun adıma isinənlər çox,
Arabir tərif də başımdan aşır,
Mənim taleyimə bayram kefi yox,
Bir qəlbin nisgilli eşqi yaraşır.

Dərdimin mənzili varmı bu axşam,
Ürəklə gözləyən kimdi, kim məni?
Ya mən talcyimi qabaqlamışam,
Ya da qabaqlayıb taleyim məni...

Ömürlər qarışıb bir yola axır, –
Mənimsə ömrümü yolsuzluq çəkir.
Belə yaşayıram, yaşamaq haqqı
Təkcə xoşbəxtlərə verilməyib ki,?

18.II. 1979

KƏPƏNƏK

Göy deyir ki, bizimdi,
Çəmən deyir, yox, bizim,
Nə çiçəksən, nə quşsan,
Əlimə qon, əzizim!

Mən də elə sənintək
Nə yerdənəm, nə göydən
Milyon arzu rəngində
Qopmuşdum bir ürəkdən.

Baş götürüb uçurdum
Başsız əsən yellərdən

Əzizləyib öldürən
Sevən-cəllad əllərdən.

Quş olsan yuvan olar,
Çiçək olsan dibçəyin
Güzgü tut taleyimə,
Görüm bəs mən nəçiyəm!

Qon əlimə, qanadım,
Qon əlimə, çiçəyim.
Sənə kobud əl dəysə
Bir yerdə öləcəyik...

DÜNYA GÖZÜMDƏN DÜŞÜB

Vaxtsız gəlib payızım,
Köksümdə solub ürək.
Dünya gözümdən düşüb
Bir damla göz yaşıtək...

Hansı çəmənə vardım
Çiçəyi, gülü solğun.
Səni kimdən soruşum?
Hamının dili solğun...

Yollar əlim kimi boş,
Buludlar daşdan ağır,
Yağır yaz yağışları –
Sənin həsrətin yağır.

Nə yetəsi arzum var,
Nə gedəsi bir yerim,
Yoxluğuna açılır
Gözüyaşlı səhərim.

Səni əlimdən alıb
Günəşi gündüzümdən.
Dünya gözümdən düşüb,
Düşmüşəm öz gözümdən!..

CAVAD XAN

poema

Zaman üzgüçü kimi çəkibmiş nəfəsini Yüz ili yüzlük kimi xırdalamaq istəmir. Əfsanəyə bənzəyən həqiqətdir keçmişim. Mütilər bu keçmişi qurdalamaq istəmir...

Tarix adlı bir güzgüdə
mən özümü axtarıram
səhər-axşam.
Görüm hardan keçib yolum,
əbədiyyət səfərinə
hansı andan başlamışam.
Hansı qaya yaddaşında
izim qalıb?
Beşiyimi yırğalayıb
hansı yollar?
Mən günəşi hansı oda çağırmışam,
İlk nəğmədə hansı eşqin
həsrəti var?
Bayrağımın ilk rəngi nə,
nişanı nə?
Dalğalanır
hansı əsrin o üzündən?
Könlümdəki işıq seli
Qanadlanıb
hansı ruhun gündüzündən?
Ocağımın istisinə
gələn kimlər, gedən kimlər...
hansı zərrəm dağa dönüb,
hansı dağım zərrələnib?
hansı günüm başa qaxınc,
hansı günlə qürrələnim?
Göydənəmsə, nə vaxt gəldim,
yerdənəmsə, nə vaxt çıxdım?
hansı şöhrət limanına
yol açıqdır?

Sazımızı balta ilə kökləyənlər,
Məni parça-tikə edib
xırda-xırda təkləyənlər
Məndən necə yan keçirib
yüz illərin sürətini?
hardan alıb yurdumuzu
əsr-əsr talan etmək
cürətini?
harda əlim gücdən düşüb,
harda qılınc korlaşıbdır?
Qəmli nəğmə çox bilirəm,
sevincimdən nə qalıbdır?
Baxım hansı səhifəyə,
açım hansı tarixi mən...
Oğluma bir nağıl deyim
yurdun mərdlik tarixindən!

Onda mənim günəşim qüruba əyilirdi,
On min ildi gəlirdim tarix adlı bir yolu.
Hər kitabda adıma yüz böhtan deyilirdi,
Hər məclisdə düşmənin tələləri qurulu...

Babaların qan töküb bu şöhrətə mindirib,
Quzğunların cəngindən saldırdığın məmləkət.
Bir qardaşın əyləncə dumanında endirib,
Bir qardaşın təzədən qaldırdığı məmləkət
Yenə parçalanmışdı kim bilir neçin, niyə?
Düşmənin kündəsini öz əlimiz yayırdı,
Xanlar xoruzlanırdı yenə dimdik-dimdiyə,
Hər dərədə bir tülkü özünü bəy sayırdı.

Onda yurdun üstünü aldı təzə bir tufan,
Gəncənin göylərində ildırımlar üz-üzə.
Ölkələr yenə-yenə haqqımızı unudan
Gördü dilbir deyilik yeridi üstümüzə.

Gəldi bir imperiya bir xanlığın üstünə,
Onun silahı hədsiz, bunun əllərisə boş.

O dünya sərvətini mənimsəyib özünə,
Bu isə öz-özüylə vuruşmaqdan yorulmuş.

Qışın birinci ayı – qar səpirdi bir əli,
Duman ilan dilitək düzləri yalayırdı.
Ağır keçən o ilin sonu ölüm həddi,
Ehtiyac gicitkəntək gözləri dalayırdı.

Axdı düşmən ordusu, gün tutuldu bir səhər,
Cavad xan elçi saldı-kəssin qanın yolunu.
Alçaldıcı cavabla geri döndü elçilər:
"Bir şəhərli kəsəcək imperiyanın yolunu?"

Əzdi düşmən burnunu neçə dəfə qəfildən
Ancaq dalı gur idi axıb gələn ordunun.
Özü talan olan da yüz mahaldan, yüz eldən
Gəlirdi talamağa başqasının yurdunu.

Qırıldı məmləkətin sərhədləri damartək,
İynə batmış şar kimi sıxılıb qaldı Vətən.
Zülmətdə öz içinə yığışırdı bir çiçək –
Bir şəhər divarına, bir evə doldu Vətən.

Cavad xan elə bil ki, evində əsir düşüb,
Hökmdardı, ilk dəfə öz hökmünə şad deyil.
Yüz minlərlə taleyi bir sözünə bağlayan
Birdən anlayıbdır ki, özü də azad deyil.

Çatma qaşlar altında baxışların gur tufan,
Zil qara saqqalına bir gecədə xal düşüb.
Pəncəsinin altında ceyranlar beli qıran,
İlk dəfə özü kimi bir pələnglə görüşüb.

Dolaşır at belində şəhəri başdan-başa,
Həsrətli baxışıyla hər binaya göz qoyur.
Soyunmuş çinarların ağ qatarı tamaşa,
Kəhrizlərin nəğməsi ürəyinə göz qoyur.

El də çətin ayaqda üz tutub ona sarı,
Gəncə üçün bu sınaq nə əvvəldi, nə axır.
Bir gecədə boy atıb dünənin uşaqları,
Gözlərindən keçmişin qəhrəman ruhu baxır.

Hamı bilir bu döyüş asan qurtaran deyil,
Çaylardan su yerinə yenə də qan gedəcək.
Gəncə bu məmləkətin tağbəndidir elə bil,
Gəncə getdi dalınca Azərbaycan gedəcək.

Anbarların önündə tünlükdü gecəyəcən,
Qala divarlarında daş verən kim, hörən kim.
Bu gələn fəlakəti gözü görməsin deyə
Evini Qarabağa, Şirvana köçürən kim.

Şəhər meydanlarında adamlar əsən külək,
Fəlakət qorxağı da ayıldır bilməmişik.
Xana baş endirənlər təsəllitək, ümidtək
Ya da qəlbən deyirlər: "Biz hələ ölməmişik".

Bir yanda qara zurna alışıb yanır yenə,
İgidlər at oynadır, toy-bayramdır elə bil.
Vətənin namusunu öz namusu bilənə
Bu vuruş da bayramdır, adicə ölüm deyil!

At da duyub nə isə, daş-divara toxunur,
Cilovu əldən almır, içinə batıb səsi.
Öz dəlisoyluğuyla xana meydan oxumur,
Şirincə yırğalayır – sahibi inciməsin.

Əynində qara kürkü, başında qara papaq,
Qara atın üstündə dar gündən soraq kimi.
Başlığının ucunu çiynindən aşıraraq
Kürəyində yellədir bir cüt ağ bayraq kimi.

Hər daşı, hər divarı qanımıza boyandı
Bu daşların üstündə yüz döyüşün izi var.
"Biz Gəncəni vermərik". – xatırladı bu andı, –
Burda Şeyx Nizaminin müqəddəs türbəsi var.

Keçir dar dalanlardan, palçıqlı yollardan da,
Yoxsul məhəllələri: görkəmi nə kövrəkdi.
Sanki indi anlayır, ayrılır bircə anda:
"Qoy bir başım açılsın, xalqa kömək gərəkdir".

Atama məzar olan, babama məzar olan,
Həmişə gülzar olan mənim bəlalı yurdum.
Səni neçə davanın alovu etdi talan,
Səni neçə zəlzələ bünövrədən uçurdu.

Bu gəncə düzlərimdə qanadın gəncə açıq
Qartalsan ayağına pudluq daşlar asılmış,
Niyə üzün gülmədi, niyə nəğmən yarımçıq,
Niyə sənin bəxtinə vuruş, qırğın yazılmış?..

Bir düşmən çəkilməmiş, yüyürdü yüzü birdən
Üstündə gecə-gündüz fəlakətlər dolaşır.
O qədər qan tökmüşəm sənin uğrunda ki mən
Ayağımın altında torpaq qırmızılaşır.

Sən yurdun ucqarında, öndə yazılıb adın,
Əli yetməyənlər də uzaqdan bir daş atır.
Bu qədər ki, dağıldın, çoxdan itib batmışdın,
Nizaminin ruhudur səni belə yaşadır.

Yəqin qədər beləymiş, yetdi mənim də növbəm,
Xan qardaşlar ohlikef, düşmən zəli, sırtıqdır.
Sabah yəhərdən aşsam, bir dəfə "uf" deməröm
Şəhid babalarımdan mənim nəyim artıqdır?

Çağırtdırdı Mirzəni... Yuxulamışdı nə isə,
Ürəyindən bu axşam qara qanlar axırdı.
Tək olub tək vuruşmaq ayıb deyil heç kəsə,
Öz yurdunda təklənmək onun üçün ağırdı.

Quba öz harayında, İrəvan öz işində,
Dərbənd, Təbriz, Ərdəbil bir-biriylə düz demir.

Lənkəran xanlığının şirə qalıb dişində
Mərkəzdədi bu bəla sanki onu gözləmir.

Yuxudan ayıltmışdı bu sınaq Cavad xanı,
Ayılıb çırpınırdı günahının əlində.
Xırda umu-küsülər bölüb Azərbaycanı,
Neçə düşmən gəlibdi bir atanın belindən.

Biri İran şahının qulluğunda dayandı,
Biri Osmanlılardan kömək umur, gözləyir.
Bir idik, güclü idik, ayrıldıq xırdalandıq,
Düşmən bizi təkləyib yolunu təmizləyir.

Hərəmiz bir dərədə, eyş-işrət, kef, əyləncə,
Bir babanın mülkünü əlli yerə bölmüşük.
Birimiz döyüləndə arxayın yatdıq gecə,
Bilmədik bir bədəndə hamımız döyülmüşük.

Məzarına od düşüb yəqin Şah İsmayılın
Yəqin Uzun Həsənin rahatlığı pozulmuş. –
Bir bayrağı altında birləşən yüz mahalın
Hərəsinin üstündən öz əskisi asılmış...

Torpaqda sürünən çox, zirvələrdən uçan tək...
Boy göstərib ucalan neçə nifaqa düşdü...
Biz bir-birimizin arxasından qaçan tək
Təbriz İranın oldu, Kərkük İraqa düşdü...

"Şükür hələ qapımdan qara bayraq asmıram,
Düşmənin hərbə-zərbu sındıra bilməz məni.
Sizə məktubumu kömək üçün yazmıram,
Yazıram ayıq olub qoruyasız Vətəni.

Bu da bir vəsiyyətdir, dedim, ruhum dincəlir,
Qoymayaq yad ellərə yurdun varı daşına,
Qalxan etdim düşmənin qılıncına Gəncəni,
Ölüm zərbəsinisə Siz endirin başına?"

* * *

Çaparlar çapıb getdi, yollar toza bələndi,
Yollar. Vətən yolları yaranışdan möcüzə.
Yollarda bir arzusu on yerə şaxələndi
Özü qaldı sərt qışın şaxtasıyla üz-üzə.

Axşam çovğun başladı, göydən piltələndi qar,
Küləyin nəfəsində aclıq ölüm zəhəri.
Gecənin yarısında gəldi qarovulçular
Düşmən axıb xəlvəti dövrələmiş şəhəri.

Düşmən çovğunla gəlib, ürəyi buz bağlamış,
Kür boyu meşələrin vüqarı qırılır.
Düşmən öz yarasına bir aydı duz bağlamış,
Yuxu getmir gözünə, sübhə kimi qıvrılır...

Gündə bir təzə həmlə,
daş divara dəyən baş,
Gəncə divarlarında burnu ovulur hər gün...
Düşmən bir ay çarpışıb anladı yavaş-yavaş
Acizdi, köməksizdi Gəncəni almaq üçün...

Şəhərsə öz işində, yuvasında arxayın,
On belə ordu gələ divarları sökəmməz.
İmtahanı nədir ki, bir ayın, iki ayın,
Bir il əsir qalsa da azuqəsi tükənməz.

Çırpılır yad ordusu qala divarlarına,
Quduz bir dalğa kimi zərrələnir daşlarda.
Yad qanı ləkə salır Şıx düzünün qarına
Qələbə ümidləri quruyur baxışlarda...

İndi düşmən elçisi gəlir əlində yazı,
General iltimasla göndərib Cavad xana:
"Mən də sülhə razıyam, qoy nahaq qan axmasın,
Biz ki, dost niyyətiylə gəldik Azərbaycana.

Bizim gəlişimizdə nə hiylə, nə ədavət,
Şəxsən imperator da dostluq vəd edir Sizə.
Məni valeh edibdir Gəncədəki dəyanət.
Şad olarıq keçsəniz bizim himayəmizə.

Bilirsiniz qüvvəmiz silahımız tükənməz,
Gec-tez dağıdacağıq bu möhtəşəm divarı.
Ancaq yaxşı düşünün, qoy qan axmasın əbəs,
Özün öz əllərinlə təqdim elə açarı!"

...Cavad xan saqqalını tumarlayıb əsəbi:
"Əbləh oğlu, əbləhin başı ayılıb deyən".
Yağlı bir söyüş ilə tamamlanır qəzəbi,
Cavabını yazdırır mirzəyə, gecikmədən:

"Əslini gizlədəmmoz çiynindəki paqonlar,
Bilirəm damarından axır erməni qanı.
Sən ki, yaxşı bilirsən Şərqin qanunları var:
Öz xoşuyla kim verər evinin açarını.

Nahaq ordu çəkdiniz bizim yoxsul ellərə
Xalqımız dinclik sevən, öz aləmi, öz işi.
İmperator sağ olsun belə lütfünə görə,
Ancaq biz hələ ondan kömək istəməmişik".

...Yenə küçələr boyu çapır qara ürgədə,
Məktubun sözlərini yadına salır bir-bir.
Bilmir xeyir gələrmi yurduna bu ölkədən,
Ancaq onu bilir ki, himayə bir hiylədir...

Bilir ki, bu dostluğun əsil mənası nədir,
Dildə qardaş olacaq, əməldəsə yad, yağı.
Bir də ayılacaqsan namusun əldən gedir,
Yad tapdağı olubdu ata-baba torpağın.

Belə yağlı dil olar?
Gülür, heyrətə gəlir.
General olsa belə-quldur candan, ilikdən:

Yazıq quzu, canavar sənə minnətə gəlir,
Deyir ki, gəl dost olaq, əl çəkək vəhşilikdən.

Rusun "şanlı" dövləti günədə bir xalqı udur,
Barmaqdan göstərəntək bi loyindən tutacaq.
Təki su yeri tapsın, bircə addım geri dur,
Yüz kağıza qol çəkə andıru unudacaq.

Gözümün qabağında qonşıların qədəri,
Ürəyimə od salıb neçə din daşın qanı.
Onsuz da biz hamımız ged əriyik, gedəri
Nəyimi qorxudacaq bu vuruş imtahanı?

...Elçi təzə nəməylə gəlir ertəsi günü:
Ordular intizarda, qılınclar qına girmiş.
Bir təbəssüm bürüyür Cavad xanın üzünü
Görür düşmən bu gün də ayrı bir dona girmiş.

Dönüb dünənki polonq, dəyişib tülkü olub:
"Əslim sənə bəllisə, niyə vuruşaq daha.
Bir vaxtlar Gəncədə də babamın mülkü olub,
Mən gəlmişəm babamın mülkünü yoxlamağa".

Cavad xan pıçıldayır, xışıldayır cığıra:
"General, əyri gözlər düz qəlbimə yol tapmaz.
Yüz belə tülkü gələ, yüz belə dil çıxara
Mənim bir eşşəyimin palanını aldatmaz.

Gəncə hara, sən hara? O nə qələtdi yedin,
Sizin dağlarınızda oynayıb daim atım.
Sənin doğma kəndin də mənim yaylağım idi,
Kirvəlik xatirinə babana bağışladım.

Heç özün bilirsənmi adın nə, millətin nə,
General olanacan kimlərdən süd əmmisən.
Çoxdan xain çıxmısan ata əmanətinə,
Yurdunu sata-sata rütbələr dilənmisən. –

Elə öz yurdunda da bir gün qılınc çəkmisən,
Öz yurdunu qılıncla yenəndə nə kişilik?
Sən ata ocağına yad tikanı əkmisən,
Onların ruhu səni qarğayıb həmişəlik.

Torpaq iştahasıyla öz-özünə gülmüsən
Bəlkə yad tikəsinə sövq eləyir Sizin din?
İmperiya ordusuyla mənə qonaq gəlmisən,
Ya ovçu tulası san özgə bir hökumətin?..

Allahın buyruğusa bu bəladan qaçılmaz,
Çox da qürrələnmə ki, ordun, topun üstündü.
Mən sağamsa Gəncənin qapıları açılmaz,
Gəncənin bir yolu var – meyitimin üstündən".

Generalın içini sökür qəzəb tufanı,
İlan kimi qıvrılır, hiylə əkir, bitməyir.
Diri-diri soyardı indi bu dikbaş xanı,
Ancaq qala alınmır; Ona əli yetməyir.

Məktubun hər kəlməsi ilişib boğazına,
Sözlər başından basır, sözlər yetib hədəfə.
Neçə aydı əl atır Gəncənin yaxasına,
Ancaq əlinin üstə dağ basılır hər dəfə.

O necə cavab tapsın çətin suala, bilmir,
Şəhər dəmir pəncədə, bəs yeyib içdiyi nə:
Balaca bir şəhəri üç aydı ala bilmir,
Nə də adlaya bilir Gəncənin üzərindən.

"Qafqaz bütöv keçəcək imperiyanın əlinə,
Baxsın İran, Türkiyə – hansı bizə güc gəlir.
Azərbaycan xanları ram olacaq on günə".
İndi bu verdiyi söz özünə gülünc gəlir.

Hanı qədim zəlzələ bu şəhəri qəhr etsin.
Yoxa çıxsın çörəyi, kəsilsin içdiyi su.
Bilmir geri qayıtsın, bilmir irəli getsin,

Yoxsa bu boş çöllərdə məhv elәsin ordunu.
Ürəyinə damıb ki, bu torpaq ona qənim,
Geriyə yolu bağlı...
Dili, dolağı əsir.
General qızıl səpir, dindirir hər ötəni
Düşdüyü bu tələdən yol tapmağa tələsir...

* * *

Axşam növbətçi gəldi,
yanında iki qonaq,
Döşlərində dəmir xaç, rahib geyimi qara.
Gəldilər müti-müti, dörd yana boylanaraq,
Çul kimi döşəndilər onun ayaqlarına.

Uşaqkən eşitdiyi uzaq, kobud dil ilə,
Dəbdəbəli təzimlə, yaltaqlı o ki var
Ətəyinə uzanan iki cılız əl ilə
Onu ümidsizlikdən çıxarırdı qonaqlar:

"Uzaqda yaşasan da, dinimiz, qanımız bir,
Adınla ucaltmısan ermәni vüqarını.
Bu "kafir" şəhərini almaq asan deyildir,
Çörəksiz, susuz qoyub, kəsməsən damarını".

...General dirçəlibdir, bayram edir ürəyi,
Rahiblər plan töküb, dağıtdılar yasını,
"Gəldik əlahəzrətə elə bir yol deyək ki,
Şəhər öz əlləriylə açsın öz qapısını":

* * *

Gəncə sarsılıb birdən...
Gözlərdə qorxu, heyrət,
Bəxt niyə üz döndərdi, bu bəla hardan gəlir?
Elə bil ki, düşmənə müttəfiqlər təbiət
Üç gündür kəhrizlərdən su yerinə qan gəlir.

Çinarlı küçələrdən qırmızı axır arxlar,
Adamlar dəstə-dəstə baxır bağrı yarılmış.
Qaynar qan qarışmaqdan qaynar gəlir bulaqlar,
Sanki yer kürəsinin şah damarı qırılmış.

Düşmənə Allah özü tərəfdardı elə bil,
O qan cildinə girib, qaynayıb yerdən gəlir.
Dünyanın axırıdı, bu təkcə dava deyil,
Tale üz döndərəndə yüz cəza birdən gəlir.

Silah da yaddan çıxıb, ölüm, qırğın da yalan,
Qılınc kəsməyən başı səs-səmirsiz su kəsir.
"Çörəyimiz tükənməz", – deyib arxayın olan
İndi bir kisə una bircə qurtum su gəzir.

Şəhər "su" deyib yanır,
yanğı söndürürmü qan?
Bir qurtum su gücü yox
nə qızılda, nə zərdə.
Uşaqlar göz yaşını yalayır dodağından,
Göz yanır gördüyünə, qılınc düşür kəsərdən.

Neçəsi də bəlayla barışıbdı deyəsən,
Qızıl qan sərhəd olub adamları ayırmış.
Taleyimiz budursa, taleyə neyləyəsən,
Yəqin Tanrının özü qan üçün susayırmış...

Düşmən duyub bu halı sevinir, bayram edir,
Görür daha şəhərin yaraları dərindi.
Damarından su axan şəhər qəhrəman idi,
Damarından qan axır yetimə dönüb indi!

Dünən minnətə gələn, yalvaran, boyun oyən,
Bu gün yenə od olub, od ilə su didişir.
Tale gücün, vüqarın səsini eşitməyən,
Hamıya bildirir ki, təslim vaxtı yetişir.

Gəncənin damarında qan axır, qırmızı qan,
Yəni dağ günahkardı, bulaqlarını satılmış?..

Dərdini deməsə də yaxşı bilir Cavad xan
Gəncənin buz suyuna al qan necə qatılmış...

Qan kəsilmir, heç olur təsəllilər, gümanlar,
Gəncə-üzü matəmə, düşmən – üzü toyadı.
Şəhər kəhrizləriylə axan qırmızı qanlar
Qəbristan yollarını matəm ilə boyalı...

Göyün üzü dönüb, birdən dayanıbdı qar,
Doğma təbiətin də mərhəməti duyulmaz.
Daha ölüsünə də biganədi adamlar,
Ölü yuyulmadısa qəbristana qoyulmaz!

Susuzluq adamları su kimi içib keçir,
Qan içməkdən unudub çoxu suyun dadını.
Düşmən keçə bilməyən qapıdan ölüm keçir,
Hamının qabağında oynadır öz atını.

Cavad xanın tək oğlu...
ağarıb gül bənizi,
Gəlir əli döşündə: "Ay ata, düşün barı,
Davasız da xəstəlik qırıb tökürsə bizi,
Yalvarıram əmr elə qoy açaq qapıları!"

O, ömrünün on yeddi baharına yol gedən,
İnam, qətiyyət yağır cingiltili səsindən.
Elə bil Cavad xanı silkələyir mürgüdən,
Görür el də bezikib bu ölüm qəfəsindən.

Dayanırlar üz-üzə, sözləri yox elə bil,
Dillərində qəm donub, baxışları keyimiş.
Oğul ilk dəfə görür ata o ata deyil,
Ata ilk dəfə görür oğlu necə böyümüş!

Görür ona dayaqdı dünən uşaq saydığı,
Oğlunun tək olmağı ürəyini yandırır,
O əsil şir balası, gözündə şimşək çaxır
Atanın vuran əli ilk zərbəyə can atır.

Doyunca oynatdımı onu uşaq yaşında,
Boynu xınalı qalıb toy üçün damazlığı.
Ata indi görür ki oğlunun baxışından,
Boylanır uluların ölümü saymazlığı.

"Oğul, güvəncim oğul, ruhum, sevincim oğul,
Döyüş ağır olacaq duyuram aqibəti.
Mən davadan dönməsəm yurdumuzda sən var ol.
Qoyma ayağa düşsün nəslimizin şöhrəti".

"Bu sözün ürəyimi parçalayır, atacan.
Vuruşdan qorxuramsa anamın südü qənim.
Sən döyüş meydanında qılınc çaldığın zaman
Mən gedib gəlin kimi gördəkdəmi gizlənim?

Gözümdə uca dağsan, kim əyə bilər dağı,
Məni ki cəsarətə səsləyibdi hər sözün.
Sən özün öyrətmisən mənə qılınc çalmağı,
İntiqam almağı da öyrətmisən sən özün!

Qoy torpağa sərilim tək qanad çalmaqdansa,
Sənə atılan güllə mənim sinəmə tuşdu.
Sənsiz sönmüş ocaqda salamat qalmaqdansa,
Sənə çiyindaş olub doğranmaq mənə xoşdur!"

...Coşub ümmana döndü ata qəlbi bu sözdən,
Qolları bir arşındı, beş arşın da uzandı,
Bundan sonra nə dərdim?
At sürüb düşmən üstə
Sinəsindən vurulmaq... Sağ qalmaqdan asandı.

Sorur təşnə qəlbinə oğlunun hər sözünü,
Görür ocağı şəndi, bağ-bağçası solmamış.
İndi daha rahatca yuma bilər gözünü,
Dünyadan almadığı arzu-kamı qalmamış...

"Ata xoşbəxtliyini sən qandırdın atana,
Sən məni canımdakı yuxudan silkələdin.

Sən sönməyə qoymazsan babaların odunu,
Üzün ağ olsun, oğul, üzümü ağ elədin.

Neçə döyüş görmüşəm, keçmişəm neçə oddan,
Ancaq bugünkü kimi məni sarsıdanı yox.
Bakı, Dərbənd, Qarabağ bizi çıxartdı yaddan,
Onlar ki, doğmadılar, onların da qanı yox.

Bizə "can" deyənlərin canı rahatdır deyən
Kin-küdrət – şeytan işi... tükənib bitməyəcək.
Onlar elə bilir ki, mənim qapımı döyən,
Bu bəla sabah gedib onlara yetməyəcək.

Mənim də səhvim olub, yadında saxla bunu,
Bəzən acı sözümə bal qata bilməmişəm.
Aralığa səpilən ədavət toxumunu,
Dənləyib, "mənəmliyi" unuda bilməmişəm!

Dən-dən olub üyündük, zəmanənin çarxında,
Hərə öz kisəsini, cibini güdən oldu.
Biz bir-birimizə əyilməkdən qorxanda
Hamımızın yerinə əyilən Vətən oldu...

Şeytan girdi araya, anlamadıq bu dərdi,
Qonşu darda qaldıqca hamımız dalda qaldıq.
Məmləkət birləşsəydi birimiz böyüyərdi,
Məmləkəti ayırıb hamımız xırdalandıq.

Özümüz balta çaldıq kökümüzə o ki var,
Qolumuzu budayıb ocaq qaladıq yada.
Qardaşı olmayanlar özgəni qardaş tutar,
Qardaşı ola-ola yetim qaldıq dünyada.

Xalqa yaxınlıq elə, dost-düşməni yaxşı seç,
Öyüddür, vəsiyyətdir – xatırlarsan sonradan.
Etdiyim səhvi etmə, keçmədiyim yolu keç,
Çalış ayrı-seçkilik götürülsün aradan.

Belimin yarağısan – korşalmasın yarağın,
Dilimin nəğməsisən – yad dildə oxunmasın.
Sənə halallıq verdim, oğul, döyüş qabağı,
Hər bəla mənə gəlsin, tükünə toxunmasın.

* * *

Atlandı ata-oğul, baxışdılar bir anlıq,
Hansı söz çatdıracaq bu səssiz fəryadları.
Gözlərdə son tapşırıq, ümid, vida, ayrılıq
Hərəsini bir yana aparırdı atları...

Döyüş, amansız döyüş, davam edir üç gündü,
Güllələr ağlar keçir, qan donur qıy səsindən
Gəncə susur, köməksiz...
Düşmən sayca üstündü,
Ancaq irəli cumcaq vurulur sinəsindən.

Meyit qalaqlandıqca, sanki divar alçalır,
Qan selləri sədd çəkir qapıların ağzında.
Qapıların birində Cavad xan qılınc çalır,
Birində oğlu gülür yağılar arasında.

Bürclərdə, küçələrdə qarışıbdı qan-qana,
Ölüm-dirimdi bu gün, kimsənin nicatı yox.
Bir qapının ağzında ata cumur meydana,
Hər əlində bir qılınc ancaq daha atı yox...

Gəncə üçün vaxt itib, gün çıxır, şər qarışır,
Bu döyüş son döyüşsə gecəsi, gündüzü bir.
Bir qapının ağzında oğul on yada qarşı,
Ancaq rəngi ağarıb, yarasından qan gedir...

Hər biri qabağında bir dəstəni kürüyən,
Dostlar, mehriban dostlar... sıraları seyrəlir...
Oğul düşmənə baxır, oda dönür yenidən,
Oğul ataya baxır, cavan qəlbi kövrəlir!

Ayaqları altına neçə düşməni sərən,
Hər qılıncı çaldıqca "al sənin payın" deyir.
Yaxındakı bir evdə boylanıb pəncərədən
Bir gözəl əsə-əsə bu harayı dinləyir.

Düşmən bir ümmandısa, Gəncə önündə damla,
Biçarə anaların gözündə yaş quruyur.
Vuruşur qoca, cavan; vuruşur son inamla,
Hərə öz cəsədiylə bir qarış yer qoruyur...

Oğlunun səsi gəlmir, Cavad xanı yaş boğur,
Endirir son zərbəni, zərbə alır arxadan...
Atanın son kəlməsi "özünü qoru, oğul!"
Oğlunun son kəlməsi "sən hardasan, ata can?"

Açılır iki qapı, enir şəhərə gecə,
Dahilərin işıqlı türbəsini alır çən...
Yad soxulur şəhərə, soxulur ancaq necə...
Ata ilə oğulun meyitləri üstündən.

Çox sevinmə general! Tarixin səbri dərin,
Sənin də növbən gələr, başını uca tutma!
Qanlarına bələnmiş bu məğrur igidlərin,
Heç kimə borcları yox! Həqiqəti unutma!..

Millətim bağışlamaz axıtdığın bu qanı –
Qardaşın qardaş üçün ağladığı vaxt olar.
Vətənimin köksündə açdığın bu yaranı,
İntiqam məlhəminin bağladığı vaxt olar.

Bir gün söz boğazına töküləcək bu zəhər,
İndisə bayramındı – təzə orden, təzə çin.
Öndə ayrı döyüşlər, öndə Bakıya səfər...
Qalanın açarları "hazırlanıb" sənin çin.

Gəncədəki qanların qisası uzun çəkməz,
Elə düşünmə Bakı üzünə xoş baxacaq.

Bir əliylə şəhərin açarını verən kəs
Bir əliylə xəncəri ürəyinə soxacaq.
Sən Vətənsiz yaşadın, tərəfini kim çəkir,
Bu torpağa yem ol ki, gözlərini dağlasın...
Bu qalanın dibində səni basdırarlar ki,
Nəsillərim lənətlə gorunu ayaqlasın.

* * *

Göydən üç alma düşdü... Göydən üç alma düşməz.
Hə nağıl de, nəğmə qoş, şərin üzü dəyişməz.
Nə qədər ki, tarix var, tarixə yamaqlar var,
Özgə torpaqlarına göz dikən axmaqlar var...

Evlərə siyasətdən qanlı arxlar çəkilir,
Öz yurdunda məzlumun başına turp əkilir.
Yenə doğma Vətənin Cənubu əli bağlı,
Düşünsə fikri bağlı, danışsa dili bağlı.

Nə qədər davam etsə sizlər, bizlər söhbəti,
Arazdan daha qəddar ayırır məmləkəti.
Hərə bir etiqada, hərə bir sözə bağlı,
Hər ötəri arzuya qul olduq gözü bağlı!

Nəslimin damarında axan qanlar dirilsə
Bu tarix unudulmaz, bu həqiqət qısılmaz.
Ağa-oğul daş kimi bir divara hörülsə.
Göydən atom da yağa yurd kimsəyə basılmaz!

Moskva, 29 oktyabr, 1985

ÖLƏNDƏ BAYRAĞA
BÜKÜLƏCƏYƏM

Ədəbiyyat bütün dövrlər üçün vacib olan ölçülərin – həqiqətin, xeyirxahlıq və gözəlliyin keşiyində dayanmağı ilə, istər-istəməz, özünü siyasətə yaxınlaşdırır.

Ədəbiyyat cəmiyyətin ovqatını əks etdirən, tarix küləklərinin hardan-hara əsdiyini duyan, zamanın gərilmiş əsəblərində hansı havaların çalınacağını qabaqcadan hiss edən bir qüvvə kimi mənəvi həyatımızda həmişə müstəsna rol oynamışdır.

Meydanlara gedən milyonların böyük əksəriyyətinin yolu bir vaxt ədəbiyyatımızın ehtiyatla göstərdiyi ictimai ağrılardan və milli fəlakətlərimizin dərkindən başlanıb.

BU QILINC DA SƏNİN, BU DAŞ DA SƏNİN

Bax, qardaşım, bax
mən də bir güzgü tuturam üzünə.
Öz taleyini göstərirəm özünə,
Min illər
min düşmən aynasında
əyri göstərildin,
Elə deyilsən!
Sən bir qəhrəmansan, kölə deyilsən!

Dünya sənin yaşıdın,
süngülərinin ucunda hürriyyət daşıdın!
Nəfəsində cənnətə çevirdin bozqırları.
Dünyanın səhərinə yüyürdü
boz qurdların.
Göydə Tanrı işığısan,
Yerdə torpağın həvəsi.
Qitədən qitəyə körpü salıb
"Türkəm!" deyən səsin.

Bax, qardaşım, bax!
Ötüken yaylaları
beşik kimi yellənir,

Orxonda, Yeniseydə
laylaların dillənir,
O tarix karvanıdı,
aşır Tanrı dağından,
Altaydan, Ağ dənizə
yol salır sorağından...
İrqinin qanadları
dörd qitəyə gərilib.
Özünü kiçik sanma,
dünya sənə verilib.

Bax, qardaşım, bax!
Haraya üz tutdunsa
apardığın ulu niyyət,
Atlarının dırnağından
göyərib mədəniyyət.
Ox atdın raket oldu –
ulduzlara yüyürdün.
Haqqa qovuşmaq üçün
zülmətlərə yeridin.
Min-min yuva qurmusan
əllərində süslənib,
Millətlər körpə uşaq –
qucağında bəslənib.
Gündoğandan günbatana
bayrağının işığı
Sən haqqın aşiqisən,
xalqım, sən haqqa şığı!

Bax, qardaşım, bax!
Aynadan nə boylanır!
Qılınc gərəkən yerdə
çiçəyə dönməyimiz.
Yurdu tənha buraxıb
yada söykənməyimiz.
Namərd tələ quranda
sözə güvənməyimiz.
Meydan açıb, qan töküb
qardaşı yenməyimiz!